# İşinin peşəkarı olmaq hər şeydən üstündür

## Rafael Muradxanlı: "Teatr bərli-bəzəkli, gülləri olan bir labirintdir. Buradan nə çıxa bilirsən, nə də çıxmaq istəyirsən..."



**"Debüt" rubrikamızın bu dəfəki qonağı gənc aktyor Rafael Muradxanlıdır. Rafael qısa müddətdir ki, Bakı Uşaq Teatrında çalışır. Yaradıcılığına ilk olaraq məhz bu teatrdan başlayan gənc aktyor "Həyat varsa" serialının "Sahibsiz", "Analıq", "Korlanan cavanlıq", "Zəhərlənmə" bölümlərinin qəhrəmanıdır. Teatrda isə ilk olaraq repertuarda yer alan "Ağıllı tülkü" tamaşasında meymun obrazı ilə çıxış edib.**
**O, bizimlə söhbətində gələcəkdən danışmağın əsassız olduğunu, gələcəyin özü ilə nələr gətirəcəyinin bəlli olmadığını qeyd etdi.**

**Xəyalə Rəis**

**- Yeni layihədə xoş gördük. Danış, səni tanıyaq.**

- 1991-ci ildə Bakı şəhərində anadan olmuşam. Yasamal rayon 153 nömrəli məktəbi bitirmişəm. Çalışqan şagird idim. Humanitar fənləri - ədəbiyyat, tarixi çox sevirdim. O zamandan məndə utancaqlıq var idi. Müəllimlərim məni danlayanda, o dəqiqə qızarmağa başlayırdım. Ona görə də nəsə səhv edəndə, çalışırdılar ki, mənə heç nə deməsinlər. Məktəbi bitirdikdən sonra 2009-cu ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "dram rejissorluğu" ixtisasına qəbul olmuşam. Kurs rəhbərimiz isə xalq artisti, teatr rejissoru Ağakişi Kazımov idi. Universitet mənə çox şey qazandırdı. 2013-cü ildə universiteti bitirdikdən sonra hərbi xidmətə getdim. Vətənə xidmət borcumu yerinə yetirdikdən sonra Bakı Uşaq Teatrına gəldim və çalışmağa başladım.

**- Bəs, utancaq oğlan necə aktyor oldu?**

- Aktyorluq sənətində heç bir qəbahət yoxdur. İndi çoxu elə hesab edir ki, əgər bu sahədəsənsə gərək həyasız olasan. Hazırda elə bir zamanda yaşayırıq ki, dövr həyasızların dövrüdür. Ancaq mənim üçün həyasızlıq insana xas olan xüsusiyyət deyil. Mən də utancaqlığımı məktəb illərində - geridə qoydum. Bəzən səhnəyə çıxanda, yaxud





da hansısa obrazı yaradanda içimdə hansısa bir kompleks baş qaldırır. Bacardığım qədər onu da özümdən kənarlaşdırmağa çalışıram.

**- Ailənizdə incəsənətin hansısa sahəsində çalışan kimsə varmı? Ümumiyyətlə, bu sənəti seçdiyin üçün etiraz edən oldumu?**

- Əmim Ələsgər Muradxanlı Gənc Tamaşaçılar Teatrında çalışırdı. Uşaqlıqdan onu izləyib, həvəslənirdim. Mən də onun kimi aktyor olmaq istəyirdim. O ki qaldı valideynlərimin razılığına, mən bu sənəti seçəndə valideynlərim çox etiraz etdilər. Mənim başqa sahəyə yönəlməyimi istəyirdilər. Bu sahədə məvacib o qədər azdır ki, pul əlimizə çatmamış yox olur. Ancaq inadımdan dönmədim.

**- Rafael Azərbaycan teatrına hansı yenilikləri gətirəcək?**

- Hazırda çalışdığım Bakı Uşaq Teatrının tamaşalarının çoxu müasir dövrlə səsləşir. Sadəcə biz hazırladığımız tamaşaları nümayiş etdirmək üçün mükəmməl də olmasa, teatral səhnəyə sahib deyilik. Tamaşalarımızı göstərmək üçün daimi yerimiz yoxdur. Qaraçuxurda yerləşən Q.Abbasov adına Mədəniyyət Evində yerləşmişik. Çox istərdim ki, teatrımızın öz binası olsun. Yaradıcı insan üçün şərait ilkin şərtlərdəndir. Düzdür, yenə də ruhdan düşmürük, işləyirik, yeniliklər etməyə çalışırıq, amma şəraitsizlik yenə də öz sözünü deyir. Mənim zənnimcə, yenilik etməkdən daha vacibi yaxşı rejissor, yaxşı aktyor olmaqdır. İşinin peşəkarı olmaq hər şeydən üstündür.

**- Gələcəkdə özünü hansı obrazda görürsən?**

- Xalq yazıçımız Elçinin "Ölüm hökmü" əsərində Muradı oynamağı çox istərdim. Qismət, yaşayarıq, görərik.

**- Teatr sənin üçün nə deməkdir?**

- Teatr mənim bərli-bəzəkli, gülləri olan bir labirintdir. Buradan nə çıxa bilirsən, nə də çıxmaq istəyirsən.

**- Özünü 20 ildən sonra necə təsəvvür edirsən?**

- Elçinin "Ağ dəvə" əsərində belə bir hissə var - "Bir gün atam həyətdəki talvarın altında oturub çay içə-içə yenə uzaqlara baxdı, bir müddət danışmadı. Sonra mənə dedi: "Bir vaxt gələcək, görəcəksən ki, qocalmısan. Heç bilməyəcəksən illər necə keçdi. O vaxt atamın dediyi sözlər mənə uzaq və dumanlı gələcəkdən xəbər verirdi və mənə elə gəlirdi ki, heç vaxt gedib o uzaq gələcəyə çatmayacam". 20 il sonra uzaq və dumanlı görünür. Həyatın axarı mənə hara atacaq - bilmirəm.

**- Asudə vaxtlarında nə işlə məşğul olursan?**

- Asudə vaxtlarımda rep deyirəm. Rep mənim içimdə yığılıb qalan bəzi hissləri üzə çıxarmaq üçün kömək edir. İfa etdiyim repin birinə klip də çəkmişik. Birini də çəkmək üzrəyik. Hələ ki bu işlərlə məşğulam.

